

# Fədakar alim ömrü

## *İbrahim Cəfərov - 70*

***Ürəyində Vətən eşqi, əllərində torpaq təravəti, yaşantılarında insan sevgisi olanlar necə də bəxtəvərdilər. Bəxtəvərdilər ona görə ki, onlar bir ömürlük zaman kəsiyində əsl Vətən aşiqi, əsl incan, əsl dost, əsl ziyalı olmağı bacarırlar. Bu ömür sahiblərinin yaşamı insanlara örnək ola biləcək qədər müqəddəsdir. Bələlərinin yaşadıqları ömrün hər anı əsl ziyalılıq və dostluğun təcəssümüdür. Haqqında danışmaq istədiyim İbrahim Cəfərovun bütün ömrü bu müqəddəsliyin əhatəsində keçib. Ona görə də həmişə düşünürəm ki, yer kürəsi İbrahim Cəfərov kimi örnək ömür yaşayanların sayəsinə hələ öz məhvərindən çıxmayıb.***

Uzun illər yaxından tanıdığım, bu gün haqqında fəxrlə, qürurla söhbət açdığım Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvi, professor İbrahim Cəfərov kimi belə maraqlı və şərəfli ömür sahibindən danışıram Onun haqqında düşünəndə ilk ağlıma gələn bu fikir oldu: "Xalq üçün, Vətən üçün yaşanan əsl insan ömrüdür İbrahim müəllimin ömrü". Heç də təsadüfi deyil ki, onu hamı zəhmətkeş, məsuliyyətli, öz işinə tələbkar yanaşan vəzifə sahibi, yaxşı mənada, mühafizəkar insan kimi tanıyır. Çalışdığı vəzifələrdə təşkilatçılığı və xeyirxahlığı ilə seçilib, həmişə kollektiv üzvlərinin sevgisini qazanıb. Söhbət hansı mərhələlərdən keçsə belə yenə də yazının əvvəlndə dediyimiz BÖYÜK



SEVGİyə gəlib çıxırıq. İbrahim müəllim kimi çalışdığı sahələrdə kollektivin, yaşadığı yerlərdə insanların sevgisinə sahib olmaq üçün ta yaranışdan içində böyütməlisən o sevgini. Sən ürəyini, ətrafını sevgiyə bələməlisən ki, sevgi də həyatını mənalandırsın.

**Professor İbrahim Cəfərovun ömürlüyündən:**

İbrahim Cəfərov 20 yanvar 1956-cı ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonu Düdəngə kəndində anadan olub. 1974–1976-cı illərdə keçmiş Sovet Ordusu sıralarında həqiqi hərbi xidmət keçib.1979-cu ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda dinləyici, 1980–1985-ci illərdə həmin institutda tələbə olub, "Bitki mühafizəsi" fakültəsini bitirib. 1985–1988-ci illərdə K. A. Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyası "Fitopatologiya" kafedrasının əyani aspirantı olub. 13 fevral 1989-cu il həmin akademiyada namizədlik dissertasiyası müdafiə edib. 1989-cu ildən Kənd Təsərrüfatı İnstitutunda müəllim kimi işləməyə başlayıb. 1993-cü ildən 2002-ci ilə qədər Meyvə-Tərəvəzçilik və Üzümçülük fakültəsinin, sonra isə Aqronomluq və Torpaqşünaslıq fakültəsinin dekanı işləyib. 2005-ci ilin iyun ayında doktorluq dissertasiyasını müdafiə edib. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2005-ci il tarixli qərarı ilə ona kənd təsərrüfatı elmləri doktoru, 2006-cı ildə isə professor elmi dərəcələri verilib.

Professor İbrahim Cəfərov 2009-2013-cü illərdə Azərbaycan Dövlət Aqrar Universitetinin tədris işləri üzrə prorektoru, 2013-2022-ci il tarixlərində isə Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru olmuşdur. 2014-cü ildən AMEA-nın müxbir üzvüdür.

İbrahim müəllim 6 oktyabr 2022-ci ildə kənd təsərrüfatı naziri İnam Kərimovun əmri ilə Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru vəzifəsinə təyin olunub. 100-dən artıq elmi məqalə, 170 elmi əsər, 10 dərslik və dərs vəsaitinin, həmçinin 6 patent müəllifidr. İbrahim müəllimin rəhbərliyi altında 6 nəfər fəlsəfə, 1 nəfər isə elmlər doktorluğunu müdafiə edib. Həmçinin Rusiyanın Miçurinsk, Qazaxıstan, Moldova və sair ölkələrin fəxri elmlər doktoru, Qazaxıstan Aqrar Akademiyasının akademikidir. 3-cü dərəcəli "Vətənə xidmət", ordeni, "Cümhuriyyət" medalı ilə təltif olunmuşdur. 4 övladı, 12 nəvəsi var.

Professor İbrahim Cəfərovun həyat yolu bu qədər zəngin və şərəflidir. İbrahim müəllimin və ətrafında olanların haqlı qənaətinə görə, ona həmişə ömür pillələrində inamla addımlamağa ilham verən özünün nəzəri bilikləri, təcrübəsi ilə yanaşı, həmişə haqqın-ədalətin yanında olması - bütün fəaliyyəti dövlətə, dövlətçiliyə və Heydər Əliyev ideyalarına göstərdiyi sədaqətdir.

**Yusifəm həmişə Vətənə bağlı,**
**Naxçıvan eli də sözlü-soraqlı.**
**Səni axtaracağıq əli çıraqlı,**
**Yaş ömrü haqladı, İbrahim müəllim.**

İbrahim Cəfərov kimi ziyalılar, böyük ürək sahibləri seçilmiş insanlardır. Onlar elə yer üzünə dünyanı nizama salmaq üçün göndəriblər. Həyatını və fəaliyyətini xalqının səadətinə həsr etmiş, könlü tox, büllur kimi saf düşüncələri ilə



insanların yoluna işıq salan, halallıq və dürüstlük kimi dəyərləri öz şəxsiyyətində birləşdirən, qəlbində böyük Azərbaycan ideallarını yaşadanlara SEÇİLMİŞLƏRdən ayrı nə ad verməк olar... İbrahim müəllim kimi bir İNSANın ömür yolu haqqında böyük bir dastan yazmaq olar.

Böyük rus yazıçısı A. P. Çexov sanki İbrahim müəllim kimi insanların haqqında demişdir: "Cəmiyyətin ən şairanə və gülərüzlü şəxsiyyətləri olmaqla onlar həvəsləndirir, fərəhləndirir və nəcibləşdirirlər". İbrahim müəllim öz peşəkarlığı və insanlara qayğıkeşliyi ilə seçilən insandır. Müxtəlif vəzifələrdə çalışdığı illərdə işinin müqəddəsliyini qoruyub saxlaya bilmişdir. Kömək etdiyi hər kəsin çöhrəsində sevinc görəndə özünü rahat hiss edir, həmin sevinci o da yaşayır.

**Alimlik zirvəndir bizə nur verən,**
**Xeyir-duan bizə düz yol göstərən.**
**Sadədən sadəsən, ucadan uca,**
**Bizim fəxrimizdən İbrahim müəllim.**

İbrahim Cəfərov haqlı olaraq deyir ki, bir ömürdə qazandıqlarım içərisində ən dəyərlisi fəxr etdiyi ailəsidir. Həqiqətən onun gözəl ailəsi var. İbrahim Cəfərovun özündə cəmləşmiş bütün müsbət xüsusiyyətlər, təbii olaraq, ailə üzvlərinə sirayət edib. İbrahim müəllim qədər bizə doğmalaşan, müdrik məsləhətləri ilə yolumuza işıq saçan, qayğıkeşliyi və isti nəvazişi ilə qəlbimizi ovunduran, yorulmaz fəaliyyəti və millət qarşısında danılmaz xidmətləri ilə cəmiyyətimizdə baş tutan hər bir tədbirə rəng qatan, xüsusən də, sədaqətli dost olmağı bacaran elə bircə O özü oldu. Onun gördüyü işlər, xeyirxah məqsədi, savab əməlləri bu günümüz və gələcəyimiz üçün ibrət, həyat dərsidir.

Bu ailənin üzvləri doğulduğu kənddə və yaşadıqlqrı şəhərdə və onları tanıyanlar arasında yüksək nüfuza malikdirlər. Bu nüfuz elə-belə qazanılmayıb. Onlara bu nüfuzu qazandıran hər zaman çətinlikdə və ehtiyacı olan tanıdıqları insanların yanında olmaları və əllərindən gələn köməyi göstərmələridir. Bunlar hamısı İbrahim müəllimin ürəyinin işığıdır ki, nura dönüb ömür yollayına səpələnib.

***Mənəvi dəyərlərimizə sadiqlik bu qayıkeş və gözəl ailə başçısının həyat amallarından biridir. İbrahim müəllim kimi insanların ömrünü mənalarından, şərəfləndirən amillərdən biri, bəlkə də birincisi həmişə el içində olmasıdır. Məhz belə insanlar öz xoşbəxtliklərini, səadətlərini, varlıqlarını Vətənə, xalqa layəqətlə xidmətdə görürlər. Onlar öz xalqının, millətinin mənəvi siması, genefondudurlar. Uzun illəri dostluğu, apardığım müşahidələr zamanı öyrənmişəm ki, o, əsl söz adamı, deyib-gülən, zarafatından qalmayan insandır. Söz-söhbətindən, şirin danışığından doymaq olmur...***

Çalın-çarpaq ömür yolunun 70-ci pilləsinə doğru addımlamaqdadır. Maraqlı və mənalı ömür yolunun xeyli hissəsi İbrahim Cəfərov üçün artıq şərəfli bir keçmişdir. Onun arxada qoyduğu altmış doqquz ilin kəhkəşanı Vətənə sədaqətlə xidmətində, insanların ürəyində ucaltdığı abidədə, bir ailəlik tabloda aydın görünür. Qarşıda hələ zəngin bir yol gözləyir. Böyük Çin filosofu Konfutsinin fikirləri yada düşür: "Böyük insanlar həyatın mənasını özündə, kiçik insanlar isə özgələrində axtarır".

İbrahim Cəfərov həyatın MƏNASInı özündə axtarıb tapdı, hər işdə, hər əməldə ÖZÜ oldu. Dünyada ÖZÜN olmaq qədər şərəfli nə ola bilər ki

Azərbaycan ziyalılarının görkəmli nümayəndəsi, böyük alim və səmimi insan, yüksək mədəniyyətli vətəndaş, xalqına sədaqətlə xidmət edən nəcib şəxsiyyət, professor İbrahim Cəfərov 70 illik ömrünün çox hissəsini maarifimizin, elmimizin inkişafına, şəxsi nümunəsində yeni ziyalı təbəqəsinin formalaşmasına, yüksək ixtisaslı bioloqların yetişdirilməsinə həsr edib, bu yolda səmimiyyətlə, ardıcıl və yorulmadan fəaliyyət göstərib.

Və sonda:
**Ay İbrahim müəllim,**
**bundan sonradır**
**əsl ömür-gün hələ ...**
**Yaşa, alim ömrü,**
**Lap çatsan da yüz yaşa!**



**Yusif MƏHƏMMƏDOĞLU,**

**AYB-nin və AJB-nin üzvi, Prezident təqaüdçüsü,**

**Xəbərlər İnformasiya Agentliyinn Baş redaktoru, yazıçı-jurnalist**